AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

*Əlyazma hüququnda*

**YAQUB İSMAYIL oğlu MÜTƏLLİBİ-QOLEZANİ**

# İSLAMDA VALİDEYN-ÖBLAD MÜNASİBƏTİ VƏ UŞAQ TƏRBİYƏSİ

İxtisas: 7213.01 – Dinşünaslıq

Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilən dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2017**

Dissertasiya AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Farsdilli əlyazmaların tədqiqi" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər**: Akademik Vasim Məmmədəliyev

**Rəsmi opponentlər**: Fəlsəfə üzrə elmlər doktoru, prof.
Əlikram Mirhəsən oğlu Tağıyev

İlahiyyat üzrə fəlsəfə doktoru
Səbinə Həmid qızı Mirzəyeva

**Aparıcı müəssisə**: AMEA Fəlsəfə İnstitutunun
İslam fəlsəfəsi şöbəsi

Müdafiə "22 " dekabr 2017-ci il, saat $12^{00}$-də AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun nəzdində yaradılmış birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Bakı, Az1001, İstiqlaliyyət küçəsi 26, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu.

Dissertasya işi ilə AMEA Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "17" noyabr 2017-ci ildə göndərilmişdir.

Dissertasiya Şurasının Elmi Katibi,
Fəlsəfə üzrə elmlər doktoru **Z.A.Əbilova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Ailədə övlad və valideynlər arasındakı münasibətlərin tənzimlənməsi və uşaqların təlim və tərbiyəsi böyük əxlaqi-mənəvi və ictimai əhəmiyyətə malikdir. Cəmiyyətin təməli ailə ilə qurulur və insanların birgəyaşayış normalarının təşəkkülü buradan başlayır. Hər bir cəmiyyətin bu günü və gələcəyi əsasən ailədən asılıdır və islam mədəniyyətində bu məsələyə böyük dəyər verilir. İslam ailədə valideyn ilə övlad arasında qurulan münasibətin mahiyyətini dəqiqliklə müəyyənləşdirir və uşaqların düzgün tərbiyəsini təkidlə vurğulayır. Burada övlad-valideyin münasibətləri həm sosial-hüquqi, həm də əxlaqi-mənəvi müstəvidə qurulur. Qur'an ayələri, hədislər və başqa qaynaqlar bu yöndə araşdırma aparmaq üçün dəyərli və mühüm qaynaq sayila bilər.

Məlum məsələdir ki, Qur'an və islamın əsas hədəfi insanları sapınmalardan çəkindirərək doğru yola hidayət etməkdir. İslamın gəlişi ilə insanların həm fərdi, həm də icma daxilində islah edilməsi məsələsi diqqət mərkəzində dayanmışdır. Bu yöndən yanaşdıqda ailə mühitində və cəmiyyətdə uşaqların təlim-tərbiyəsi mühüm yer tutur. Təəssüflər olsun ki, bu məsələ üzrə islam mədəniyyətində örnək ola biləcək məqamlar çox olsa da onlar üzərində müasir dövrün sosial-ictimai şəraitini nəzərə almaqla sistemli tədqiqat işi aparmaq əvəzinə başqa məktəb və cərəyanlara aid tərbiyə üsulları daha çox təbliğ edilir. Əlbəttə, valideyn-övlad münasibətlərinin və tərbiyə mövzusunun başqa mədəniyyətlərdə necə qoyulması ilə tanışlıq faydalıdır, ancaq bu mövzunun islam qaynaqları, xüsusilə də Qur'an və sünnət əsasında təhlili həmin məsələnin bir çox dərinliklərinin və səmərəsinin mühüm cəhətlərinin ortaya çıxmasına və uşaqların tərbiyəsində həmin qaynaqlardan gələn dəyərlərin nə qədər əhəmiyyətli olmasını müəyyənləşdirməyə kömək edə bilər.

**Mövzunun işlənmə səviyyəsi.** İslam mədəniyyətində valideyn-övlad münasibətlərinin müxtəlif aspektləri və uşaqların tərbiyəsi məsələsi geniş araşdırma mövzusudur. Bu mövzu ətrafında çoxlu kitab və məqalələr dərc edilmiş, tədqiqat işləri aparılmışdır. İslam mədəniyyətində bu məsələ hüquq, sosial-ictimai, əxlaqi və psixoloji yönlərdə araşdırmaya cəlb edilə bilər.. İslamşünas alimlər valideyn-uşaq münasibətlərini daha çox hüquq müstəvisində araşdırmışlar. Bu istiqamətdə Türkiyə və İranla yanaşı, Azərbaycanda Səbinə Mirzəyevanın "İslamda uşaq hüququ"

mövzusunda apardığı araşdırmalar xüsusilə diqqəti cəlb edir[1]. Son dövrlər sosioloqlar və psixoloqlar mövzuya müxtəlif yönlərdən yanaşaraq ailədə valideyn-övlad münasibətlərinin səmərəli şəkildə tənzimlənməsi üçün məsələyə təkcə hüquqi yöndən yanaşmağı yetərli hesab etmirlər, burada əxlaq və təlim-tərbiyə mövzusunu önə çəkməklə problemin daha dərindən təhlili məqsədilə ona bir neçə aspektdən yanaşılmasını zəruri sayırlar. İranda islam baxımından valideyn-övlad münasibətləri islam hüququ zəminində araşdırılmış, ayrıca olaraq uşaqların tərbiyəsi mövzusunda bir sıra populyar kitablar nəşr edilmişdir. Bu sırada bir neçə əsərin adını çəkmək olar: Məhəmməd Bağır Hüccətinin "İslam və təlim-tərbiyə" adlı kitabçasında əsasən ata və ananın sağlam nəsil yetişdirməkdə başlıca vəzifələrindən bəhs etmişdir[2]. Bu sahə üzrə digər dəyərli əsər Hüseyn Məzahirinin "İslam baxımından övlad tərbiyəsinə bir baxış" adlı əsəridir[3]. Müəllif Qur'an ayələri və rəvayətlərdən istifadə edərək uşaq tərbiyəsinin dini-mənəvi mənzərəsi barədə qısaca məlumat verir. Bu mövzu ətrafında bəhs edən daha üç müəllifin adını çəkmək olar: Ustad Mütəhhəri, Yədullah Cahangərd və Əhməd Behişti.

Məlum məsələdir ki, İslamda tərbiyə məsələsi eyni zamanda əxlaqla sıxı surətdə əlaqədardır və islam əxlaqı bu cəhətdən öz zənginliyi ilə seçilir. Bu mövzu üzrə Türkiyə və Azərbaycanda maraqlı araşdırmalar aparılmış və kitablar nəşr edilmişdir[4].

Adı çəkilən araşdırmalarda istər uşaqların hüququ, istərsə də valideyn-övlad münasibətləri daha çox ümumi və populyar şəkildə, bəzən də nəsihət və tövsiyələr halında təqdim edilmiş, məsələnin psixolioji, ictimai-sosial və əxlaqi-tərbiyəvi cəhətləri elmi-nəzəri müstəvidə təhlil edilməmişdir. Eyni zamanda həmin araşdırmalrda daha çox uşaq hüqundan bəhs edilmiş, valideyinlərin uşaqlar üzərinda haqları barədə ya bəhs edilməmiş, ya da bu məsələyə ötəri toxunulmuşdur. İslamda valideyn və övlad münasibətlərindən danışarkən məsələnin təkcə dini-

---

[1] Mirzəyeva Səbinə. İslamda uşqa hüququ. İlahiyyat elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı.Bakı.2007; Mirzəyeva Səbinə. İslamda uşaq hüququ. Bakı: "Adiloğlu". 2009

[2] حجتي، محمد باقر، ***اسلام و تعليم و تربيت***، تهران دفتر نشر فرهنگ اسلامي، 1357 ه.ش

[3] مظاهري، حسين، ***تربيت فرزند از نظر اسلام***، تهران سازمان تبليغات اسلامي، چاپ چهاردهم، 1391

[4] Əhmədov Əhmədağa. İslam əxlaqı. Bakı: "Maaruf". 1993; Prof.Dr.. M.Yaşar Kandemir. Örneklerle İslam ahlakı. İstanbul: Nesil.2005

əxlaqi tərəfi deyil, həm də hüquqi və ictimai-sosial yönü nəzərdə tutulur. Bu işdə mövzu geniş müstəvidə araşdırılır.

**Tədqiqat işinin yeniliyi**.Bu araşdırmada valideyn və övlad münasibətləri təkcə fiqh baxımından deyil, əxlaqi-ictimai, mədəni və psixoloji yöndən dəyərləndirilir. Başqa bir yandan, tədqiqat işində uşaqların valideynlər qarşısında hüquqları ilə yanaşı, qarşılıqlı olaraq valideyinlərin də uşqalar qarşısında haqları təhlil edilir.Mövzunun işlənməsində Qur'an, təfsir, hədis və klassik əsərlərlə yanaşı, müasir elmi-nəzəri ədəbiyyatdan istifadə edilməklə, məsələnin müasir dövrdəki əhəmiyyəti diqqətə çatdırılır. Digər bir cəhət ondan ibarətdir ki, uşaqların tərbiyəsində dini dəyərlərlə əxlaqi, ictimai-sosial və psixoloji amillər qarşılıqlı surətdə götürülür. Tədqiqatda eyni zamanda, valideyn-uşaq münasibətlərinin islam baxımından təhlilinin ailənin möhkəmləməsindəki rolu qabardılır. Burada İslam baxımından uşaq tərbiyəsinin hədəf və mahiyyəti, dini tərbiyə və onun əhəmiyyəti, ictimai və əxlaqi tərbiyə, uşaq tərbiyəsinin mühüm prinsip və metodları, tərbiyənin əsas amilləri və mərhələləri işıqlandırılır. Sadalanan məsələlərin bir-biri ilə üzvü şəkildə bağlı olduğunu nəzərə alsaq, tədqiqat işində onların kompleks və sistemli şəkildə təhlili diqqət mərkəzində dayanır.

**Dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti.**

Bu araşdırmanın qaynaqları və nəzəri müddəaları islam hüququ və sosiologiyası, islam mədəniyyət tarixi sahəsində aparılan tədqiqat işləri üçün əhəmiyyət daşıyır.

Araşdırmanın nəticələri islam əxlaqı, sosiologiya və psixologiya fənlərinin tədrisində istifadə oluna bilər.

**Araşdırmanın məqsəd və vəzifələri.**

Tədqiqat işinin əsas məqsədi Qur'an hədis və digər islam qaynaqları əsasında valideyn və övlad münasibətlərinin qarşılıqlı hüquqi və əxlaqi-mənəvi əsaslarının sistemli təhlili və həmin kontekstdə uşaqların tərbiyəsinin əsas cəhətlərinin müəyyənləşdirilməsidir. Araşdırmada diqqət eyni zamanda islam maarifi işığında gənclərin tərbiyəsinin müasir dövrdəki praktiki əhəmiyyətinə yönəlir.

Bu məqsədə yetişmək üçün tədqiqat işində aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

- Valideyn və övlad arasında qarşılıqlı hüquqi vəzifələrin islam qaynaqları əsasında müəyyənləşdirilməsi;
- Uşaqlar üçün fiziki və psixoloji mühitin yaradılması;
- Uşaqların yaşam haqqının qorunması;

- Uşaqların şəxsi və sosial-ictimai təhlükəsizliyinin təminatı;
- Uşaqlara qayğı və nəvazişin psixoloji əhəmiyyəti;
- Uşaqların şəxsiyyətinə hörmət;
- Valideynlərin hüquqlarının uşaqlar tərəfindən təmin edilməsi və onun əsas aspektləri;
- İslam baxımından uşaqların tərbiyəsinin mühüm cəhətlərinin müəyyən edilməsi;
- Uşaqların tərbiyəsində dini-əxlaqi və ictimai yönlər;
- Uşaqların tərbiyə üsulları.

**Tədqiqat işinin metodu.**

Bu araşdırma ilkin mənbələr əsasında işlənməklə onda tarixi-diaxronik və müasir tərəflər arasında əlaqə qurulmuşdur. Mövzunun işlənməsində tarixi müqayisəli metoddan istifadə edilmişdir.

**Dissertasiya işinin aprobosiyası.**

Tədqiqatın əsas elmi müddəaları Azərbaycan və xaricdə çıxan elmi nəşrlərdə və konfrans materiallarında əks olunmuşdur.

**Tədqiqatın quruluşu.**

Dissertasiya giriş, iki fəsil, hər fəsil bir neçə yarımfəsil, nəticə və biblioqrafiyadan ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**“İslamda valideyn-övlad münasibətlərinin qarşılıqlı əlaqəsi”** adlı birinci yarımfəslində **İslamda ailə və uşağın ictimai-sosial hüquqları** təhlil edilir.

İslamda valideyn-övlad münasibətlərinin tənzimlənməsi ailə və cəmiyyətin mühüm problemləri sırasındadır. Burada uşaqların hüququna böyük əhəmiyyət verilir və məqsəd ailə və cəmiyyət üçün həm sosial-ictimai, həm fiziki və cismani, həm də əxlaqi və mənəvi baxımdan sağlam nəsil yetişdirməkdir. İslamda uşaqların hüququ üç cəhətdən diqqət mərkəzində saxlanılır:

1. Sosial-mədəni baxımdan
2. Bioloji həyat baxımından
3. İnsani və mənəvi dəyərlər baxımından.

*Birinci cəhət* aşağıdakı məqamları əhatə edir:

1. Valideynlərin evlənmədən öncə uşaq hüquqlarına riayət etməsi (ömür yoldaşının seçilməsi).

İslama görə ailə qurmaq Allahın nəzərində ən bəyənilən prinsiplərdən biridir[5]. Əlbəttə, məsələnin bu şəkildə qoyulması, yəni ailə həyatı qurmağın müqəddəs bir iş kimi təqdim edilməsi islamda ailə həyatına verilən dəyərin dərəcəsini göstərir.

Evlənmək və ailə qurmaq islam icmasında böyük bir insani, ictimai və ilahi məsuliyyət sayılır. İnsan Ailə həyatı təkcə fərdi rifah və rahatlıq üçün deyil, cəmiyyətin ümumi maraqları baxımından əhəmiyyət daşıyır. Ailə həyatı quranlar gələcəyə hansı nəsili təhvil vermək məsuliyyəti daşıyırlar. Buna görə islamda ailə qurmağın sosial-ictimai əhəmiyyəti xüsusi qabardılır[6]. Deməli, ailə qurmazdan öncə bu məsələnin məsuliyyətini dərk etmək və ona hazır olmaq lazım gəlir. Ailə təşkili sağlam və ləyaqətli övlad tərbiyəsi üzərində qurulur. Ata və ana övlada sadəcə nəsil artırmaq baxımından yanaşmalı deyil, onu Allahın hədiyyə və əmanəti kimi qəbul etməli, öz məsuliyyətini dərk etməlidirlər.

Bütövlükdə isə islam baxımından ailə qurmağın mühüm məqsədi sağlam övlad yetişdirməkdir. Qur’an bu ənənəni kəskincəsinə rədd edir və Şura surəsinin 49-50-ci ayələri bunu açıqca bəyan edir.

Bir məsələni də qeyd edək ki, uşağın gəlişi ailəyə yeni əhvali-ruhiyyə bəxş edir, ata-ananın həyatında mühüm hadisə kimi diqqəti cəlb edir. Uşağın gəlişi ailə mühitində müsbət psixoloji təsirə malik olmaqla onun möhkəmlənməsində mühüm rol oynayır. Ata və ana öz övladının sağlam böyüməsi və tərbiyəsi üçün daha çox çalışır və səy göstərirlər. Valideynin övlad yetişdirmək üçün göstərdiyi səylər həm dünyəvi və ictimai, həm də mənəvi və axirət sahibi baxımdan əhəmiyyət kəsb edir. Təcrübə göstərir ki, övladsızlıq üzündən bir sıra ailələr psixoloji gərginlik yaşayır, həyat stimulu aşağı düşür, hətta ailə dağılır, hər iki tərəf müstəqil həyat yolu seçir. Bəzən də övlad olmadıqda qadın və kişi ailədə anlaşa bilmir və yola getmirlər. Ancaq övladların gələcəyi üçün öz məsuliyyətlərini dərk edən qadın və kişi buna xatir anlaşma tapır və ailənin dağılmasına imkan vermirlər. Bu isə övladın ailə həyatında olan önəmini bir daha təsdiqləyir.

İslama görə uşaqların tərbiyə və yetişdirilməsi onların doğumundan əvvəl başlayır və burada bir sıra tövsiyələrə riayət etmək

---

[5] نجفي، محمد حسن، ***جواهر الكلام في شرح شرائع الاسلام***، دارالكتب اسلاميه، چاپ هفتم، 1392 ه.ق ص.29

[6] شريفي، احمد حسين، *آيين زندگي*، دفتر نشر معارف، چاپ دوم، 1384 .ص. 189

lazım gəlir ki, onlar qaynaqlarda "vacibat", "müstəbəhat" və "məkruhat" adı ilə verilir. İslamda bütün işlərə Allahın adını zikr etməklə başlayırlar[7]. *Övladlar üçün yaxşı ad seçimi.* Valideynin övlad üzərində borclarından biri ona münasib və yaxşı ad seçməsidir. Ad seçərkən uşağın gələcəkdə böyüməsini və cəmiyyət arasına çıxmasını nəzərdə tutmaq lazımdır. Təbiidir ki, qəbahətli və uşağın şəxsiyyətini kiçildən adlar gələcəkdə çətinliyə səbəb olur.

*İkinci cəhət*: Uşaqların yaşam haqqı. Uşaqların ailə qayğısından bəhrələnmək, ata-anaya malik olmaq haqqı vardır. Onların bu haqqı qanun və şəriətdə nəzərdə tutulur.

Qur'anın Nisa surəsi, 1-ci və Rum surəsi, 21-ci ayəsində ailə qurmaq Allahın sünnəti – yəni ənənəsi kimi təqdim edir.

Uşağın mühüm haqlarından biri möhkəm və aydın kimliyi olan ailəyə sahib olmasıdır; uşağın həmin ailədə ata-ananın maddi, mənəvi və psixoloji himayəsi altında böyümək haqqı vardır. Uşaq məhz ailə mühitində hərtərəfli qayğı ilə əhatə olunaraq yetkinləşir.

Qanuni ailə çərçivəsindən kənar doğulan uşaq məhz valideynninin kimliyindən məhrum olur ki, bu da islamda uşaq hüququnun ciddi surətdə pozulması hesab edilir.

a. Uşaq üçün ailə başçısı hüququ.

İslamda uşağın ilkin hüququ onun konkret ata və anaya mənsub olmasıdır. Bu bir növ kimlik məsələsidir; ata-ananın kimliyi müəyyən edilməli, çünki uşağın kimliyi buna bağlıdır. Bununla da ata-ananın öhdəsinə bir sıra vəzifələr düşür: onu saxlayıb böyütmək, qorumaq və təhlükəsizliyini təmin etmək, uşağın sakit psixoloji mühitdə yaşaması, lazımi həyati vasitələrlə təminatı və s.

b. Nigah əlaqəsi (nisbəti).

Bu o deməkdir ki, uşağın anası nütfənin mayalanması zamanı şəriət baxımından qanunu nigahda olmalıdır. Bu nigah daimi və müvəqqəti ola bilər. Atalıq nisbətinin sübutu üçün şərtlər də vardır.

Fəqihlərə görə uşağın ataya mənsub olmasını sübut etmək üçün müəyyən edilən müddət nütfənin bətnə daxil olması və qatışmasından ən azı altı ay keçməsidir. Əbu Hənifə məzhəbinə görə həmin müddət nigah bağlanan zamandan hesablanır. Hamiləlik üçün maksimum müddət hənəfilikdə 2 il, şafeilik və hənbəlidə 4 il, bəzən də 1 və 5 il hesablanır[8].

---

[7] محمديان، بهرام، ***نگاهي ديگر به حقوق فرزندان از ديدگاه اسلام***، تهران، 1377 . ص 28-29

[8] حصفكي، علاء الدين، ***الدر المختار***، دارالفكر، بيروت، 1415 .ج.3.ص. 592

c. Uşağın şəxsi və ictimai təhlükəsizlik hüququ.

Bu hüquq uşaq doğulmazdan öncə – hamiləlik dövrü və doğulandan sonrakı dövrü əhatə edir.

Uşağın fiziki və psixoloji cəhətdən möhkəmlənməsi üçün istər ailədə, istərsə də cəmiyyətdə ictimai təhlükəsizlik mühiti hakim olmalıdır. Ailədə həmin mühiti ata-ana yaratmağa borcludur. Ümumiyyətlə bəşərin, o cümlədən uşaqların həyati ehtiyacları iki əsas dəstəyə bölünür:

1. Maddi və bioloji (yemək, yatmaq, hava, su, məskən və s), bunlarsız həyat mümkün deyildir;

2. Ruhi-psixoloji ehtiyaclar ki, bunlar təmin edilməsə psixoloji narahatlıqlar yaranır, qayğı və duyğudan məhrum edilən uşaqlar dalğın və ümidsiz olurlar[9].

Burada maraqlı bir məqam da var, ana uşağı öz təbii südü ilə qidalandırarsa, bunun müqabilində onun üçün muzd nəzərdə tutulur. O, əgər imkanı varsa ata, atanın atası, yaxud uşağın özündən haqq ala bilər. Əgər ata və babanın imkanı yoxdursa, ana uşağı haqq almadan o südlə qidalandırmalıdır. Əgər uşağa dayə tutularsa, onun haqqı ödənilməlidir[10]

Fəslin ikinci yarımfəsli "**Uşağın fiziki və psixoloji sağlamlıq hüququ"** adlanır. Uşağın bu iki yöndən sağlam olması bir sıra hallarda ata-anadan asılıdır və bəzi hallarda fiziki və psixoloji zəiflik və ya naqislik irsən uşağa keçir. Əlbəttə, bu həmişə belə olmur və uşağın naqisliyinin yeganə dəlili irsi amil deyildir. Ona görə islam evlənən tərəflərin fiziki və psixoloji sağlamlığının diqqət mərkəzində saxlamağı tövsiyə edir[11]. Maraqlı haldır ki, islam peyğəmbəri yaxın qohumlarla evlənməyi məsləhət bilmirdi[12].

Uşaqların fiziki və psixoloji sağlamlıq hüququ hələ hamiləlik dövründən başlayır. Qur'an Loğman surəsi, 14-cü ayədə ananın hamiləlik dövrü keçirdiyi çətinliyə işarə edir. Dini təlimlərə görə, uşağın xoşbəxtliyi və ya uğursuzluğu həmin mərhələdən başlayır. Peyğəmbər (s) buyurur: "Bədbəxt o kəsdir ki, ana bətnində gərginliyə düçar olur,

---

[9] مندراس، هانري، گورويچ، ژرژ، ***مباني جامعه شناسي***، تهران، امير كبير، 1350 .ص. 76

[10] نجفي، محمد حسن، ***جواهر الكلام في شرح شرائع الاسلام***، دارالكتب اسلاميه، 1392 . ص 31

[11] هندي، حسام‌الدين، ***كنز العمال***، تحقيق شيخ صفوه السقاء، مؤسسه الرساله،بيروت، ج.16.ص 296

[12] هندي، فتني، محمد طاهر بن علي، ***تذكره الموضوعات***، بي جا، بي تا. ص. 127

xoşbəxt o kəsdir ki, ana bətnində xoşluqla böyüyür”[13]. Əlbəttə, bunların məsuliyyəti daha çox atanın üzərinə düşür, çünki ailənin xərcləri əsasən onun öhdəsinə düşür. Onun vəzifəsi təkcə maddi təminatla bitmir, ailə başçısı kimi hamilə qadının bütün qayğılarını çəkməli, ona psixoloji və mənəvi himayədarlıq göstərməlidir.

*Bətndəki uşağın (cənin) həyat haqqı.* İslamda bətndə formalaşan uşaq bir şəxs kimi müəyyən hüquqlara malik olur. Fiqh alimlərinin müəyyən etdiyi kimi onun hüquqları o zaman keçərlidir ki, diri halda doğulsun, ancaq doğulandan sonra ölə də bilər

Uşaq bətndə həyata qabil şəklə düşəndən sonra onun hüquqları təmin edilir. Onun bətndəki həyatı zamanı müxtəlif mərhələlərdə xəsarət alması hüquqi məsuliyyət yaradır[14]. Ata-ananın uşağı tələf etməyə haqqı yoxdur və bu onun yaşamaq haqqını pozmaqdır. Deməli, övlad insan üçün dünya və axirətdə xeyir qaynağıdır. O həm də Allahın bəxş etdiyi əmanətdir.

*Uşağın ana südü ilə qidalanması*

İlahi qanuna görə yeni doğulan uşaq ana südü ilə qidalanmalıdır və bu həm də təbiətin qanunu ilə üst-üstə düşür. Müasir mütəxəssislərə görə ana südü uşağın təbii və sağlam böyüməsi üçün bütün lazımi minerallarla zəngindir. Qur’ani-Kərimdə uşağın ana südü ilə qidalanması müddəti Bəqərə surəsi, 233-cü ayədə iki ilə qədər müəyyən edilir:

Qur’an və hədisə görə uşağın ana südü ilə qidalanması onun haqqıdır və onu bu nemətdən məhrum etmək olmaz[15]. Beynəlxalq Uşaq Konvensiyasının 24-cü maddəsində həmin Konvensiyaya üzv olan ölkələrdən tələb olunur ki, uşaqların qida ilə təmin edilməsini və ana südü ilə qidalanmanın məziyyətləri barədə cəmiyyətin maariflənməsini diqqət mərkəzində saxlasınlar.

Deməli, müsəlmanlar bu məsələyə həm öz ənənəvi mədəniyyətindən gələn bir hüquqi norma kimi, həm də müasir dövrlə uyğun gələn elmi məsələ olaraq diqqət yetirirlər.

Ancaq fəqihlər ananın uşağa süd verməsinin vacibliyi üçün üç şərt irəli sürürlər:

1. Uşaq anadan başqa kimsədən süd qəbul etməsin;

---

[13] هندي، حسام‌الدين، ***كنز العمال***. ج.8.ص 467

[14] وزيري، مجيد، ***حقوق متقابل كودك و ولي در اسلام***، تهران، نشر بين الملل 1387. ص. 87

[15] نجفي، محمد حسن، ***جواهر الكلام في شرح شرائع الاسلام***، ج.31.ص. 283

2. Anadan başqa süd verən tapılmasın;

3. Uşağın atası olmasın, yaxud dayə tutmağa imkan olmasın.

İslamda uşağın ana südü ilə qidalanması iki il müddətində nəzərdə tutulur və bunun uşağın sağlam böyüməsi üçün böyük faydası vardır. Alimlər də bu məsələni elmi cəhətdən təsdiqləyirlər:

1. Ana uşağı qucağına alıb ona süd verəndə uşaq rahat olur və bunun ləzzətini yaşayır. Bu həm ana, həm də uşaq üçün faydalıdır, "ana-uşaq arasında yaranan hissi əlaqənin və duyğuların qarşılıqlı təsiri hər ikisində xoş ruhiyyə yaradır"[16].

2. Ana südü uşaq üçün mükəmməl bir qida sayılır.

3. Ana südündə uşağın orqanizmi üçün protein, minerallar, duzlar, müxtəlif vitaminlər mövcuddur.

Uşaq üçün dayə tutarkən onun cismani, ruhi və psixoloji cəhətdən sağlam olması önəmli şərtdir. Hətta dayənin xasiyyəti də nəzərə alınır, çünki uşaq onunla təmasda olur[17]. Deməli, dayə seçimində iki cəhət diqqət mərkəzində dayanır:

1. Fiziki və psixoloji sağlamlıq;

2. Əxlaq və xasiyyət.

*Oğlan uşağının sünnət edilməsi*

İslamda sünnət vacib və zururi məsələlərdən biridir və təbabətə aid kitablarda da sünnətin faydası haqqında bəhs etmişlər.

Bu fəslin üçüncü yarımfəslində **"Uşaqların həzanət və qayğı haqqı"** açıqlanır. Həzanət uşağı qucağa almaq, ona qayğı və nəvaziş göstərmək, onu böyütmək və dayəlik mənasında işlənir. Bu məfhum bir növ uşağı saxlamaq və bəsləmək mənası bildirir: onu yuyub bələmək, beşikdə yatızdırmaq və s. əməllər bura daxildir [18].

Həzanət uşağın yaşına uyğun onun saxlanması və bəslənməsi üçün bütün lazımi işlərin yerinə yetirilməsini nəzərdə tutur. Bu, təkcə uşağın fiziki sağlamlığı ilə məhdudlaşmır, onun psixoloji və ruhi baxımdan qorunmasını da ehtiva edir. Gerçək olan budur ki, həzanət ata və ana üçün həm vəzifə, həm də haqqdır. Deməli, həzanət ata və ana (valideyn)

---

[16] وزيري، مجيد، ***حقوق متقابل كودك و ولي در اسلام***، ص. 163

[17] كليني، ابوجعفر محمدبن يعقوب بن اسحاق، ***الكافي***، تحقيق علي اكبر غفاري، دارالكتب اسلاميه، تهران، 1365 .ج.6.ص. 44

[18] فيضي، عليرضا، ***مبادي فقه و اصول***، دانشگاه تهران، چاپ هفتم، 1374. ص. 125.

üçün bir yandan haqqdır və bu onların xeyrinədir, başqa yandan isə vəzifədir, bu isə onların zərərinə və uşağın xeyirinədir[19].

Oğlan uşağı üçün ananın həzanət haqqı iki yaş tamamlana və süd vermə müddətinin bitməsinə kimidir. Bu müddət qız üçün yeddi ildir. Ancaq keçmiş fəqihlər ana üçün həzanət haqqını istər oğlan və istərsə də qız uşağı barədə qadının ərə getməsinə qədər bilirlər. Əgər uşağın ata-anası vəfat edərsə və ata babası sağ olarsa, həzanət haqqı ona keçir və əgər ata-ana və ata babası da dünyadan gedərsə İmamiyyə fəqihləri bu barədə müxtəlif fikir irəli sürmüşlər və dissertasiyada bunlar açıqlanır.

*Xərclərin hüquqi özəllikləri.*

Uşaqların valideyn və əcdadları üzərində olan haqlarından biri xərclərlə bağlıdır. Övlad üçün xərclər islam hüququnda "əqarib" (yaxınlar) üçün xərc kimi verilir. Bu isə "nəfqə" termini ilə ifadə olunur ki, onun mənası xərc, ailə xərcləri, övlad xərcləri deməkdir. Buraya zəruri ehtiyacların xərci daxildir[20]. Fiqdə nəfqə dedikdə həyat ehtiyaclarının təmin edilməsi nəzərdə tutulur ki, buraya yemək, paltar, məskən və digər həyati ehtiyaclar daxildir[21]. Bir-birinin xərcini ödəməli olan yaxınlar və qohumlar iki qrupdur:

1. Ata-ana (valideyn) və əcdad (babalar)
2. Övlad və övladın övladı (nəvə)

İmamiyyə fiqhində qohumlar üçün xərcləmək iki şərtlə bağlıdır:

1. Xərcə ehtiyacı olmaq (kasıblıq);
2. Xərcləyən tərəfin maliyyə imkanı.

Göründüyü kimi, islamda uşaq və valideyn münasibətinin hüquqi əsaslarla tənzimlənməsi diqqət mərkəzində yerləşir.

*Uşaqların qayğı və əyləncə haqqı.*

Psixoloqlara görə oyun və əyləncə uşağın mühüm ehtiyacı kimi ortaya çıxır. Oyun və əyləncənin başqa bir əhəmiyyəti budur ki, bununla uşaq başqaları ilə əlaqə və ünsiyyət qurur, onlarla yola getməyi, bir-birinə yardımı, bir-birinin hüququna riayət etməyi, dinc yanaşı yaşamaq qaydalarını, qayda-qanuna riayət etməyi, öz haqqını qorumağı, məsuliyyəti və başqaları ilə necə əlaqə qurmağı öyrənir. Elə bu cəhətə görə islam uşağın bu hüququnun təminatına diqqətlə yanaşır.

---

[19] طبرسي، فضل بن حسن، ***مجمع البيان في تفسير القرآن*** .ج.3.ص 326

[20] دهخدا، علي‌اكبر، ***لغتنامه دهخدا*** ، دانشگاه تهران، 1337 .ج.48.ص. 673

[21] فيض كاشاني، محمدمحسن، ***المحجه البيضاء في تهذيب الاحياء***، قم، 1383 .ص. 378

Peyğəmbər öz həyatında bunu təcrübə etmişdir. O, buyurur: “Uşaqları sevin, onlara mehribanlıq göstərin, onlara verdiyiniz vədəyə əməl edin, onlar sizin əlinizə baxır”[22].

Uşaq ailə mühitində ata-anadan məhəbbət görərsə, qarşılıqlı olaraq onlarla xoş rəftar edər, sözlərinə qulaq asar. Bununla da ata-ana üçün uşağın düzgün tərbiyəsinə zəmin yaranır. Bu səbəbdən islam ailə mühitində uşaqlara mehribanlıq göstərməyə böyük əhəmiyyət verir[23]

*Uşaq şəxsiyyətinə ehtiram.*

Uşağa ehtiramla yanaşmaq və onun şəxsiyyətini dəyərləndirmək islamda uşaq hüququnun bir parçasıdır və valideyn bunu təmin etməlidir. İslam peyğəmbəri (s) belə buyurur: “Öz övladlarınıza ehtiram bəsləyin, onlarla yaxşı ədəblə rəftar edin ki, Allah sizi bağışlasın”[24].

Cahiliyyə dövrü qızlara böyük zülm edildiyindən islam bu yanlış münasibəti bir kənara qoyaraq qızların hüquqlarının qorunmasına xüsusi diqqət yetirdi .Uşaqlara ehtiram məsələsində islamda əməli nümunələr vardır və onları bu şəkildə ümumiləşdirmək olar:

1. İslam peyğəmbəri uşaqlarla münasibətdə örnək kimi[25].
2. Uşaqlara yersiz irad tutmaq.
3. Uşaqdan məntiqi rəftar gözləmək.
4. Sözünə əməl etmək.

Birinci fəslin dördüncü yarıfəsli **“İslamda valideynlərin uşaqlar üzərində haqları”** adlanır. Uşaqların ata-ana üzərində haqqı olduğu kimi, valideynlərin övlad üzərində haqqı vardır. Bu haqların ödənilməsi həm din və şəriət, həm əxlaq və vicdan, həm də ağıl və məntiq baxımından zəruridir. İslama görə valideynin məqamı çox yüksəkdir. Övladlar Allahan sonra valideynə təzim etməlidir (Loğman: 13)

Həmin yarımfəslin birinci paraqrafında **“Valideynin saxlanması”** ilə bağlı məsələlər araşdırılır:

*a. Xərclər*

Valideyn maddi çətinliyə düşərsə, övladlar onların əsas həyati təlabatını (yemək, paltar, məskən) təmin etməyə borcludurlar. Əgər ata-ananın bir övladı varsa, o, hər ikisi üçün bərabər ölçüdə xərc çəkməli,

---

[22] حر عاملي، محمد بن حسن، ***وسايل الشيعه***، دار احياء التراث العربي، بيروت .ج.15.ص. 201

[23] اميني، ابراهيم، ***اسلام وتعليم و تربيت (2)***، انجمن اوليا ومربيان، تهران، 1372 .ص. 194

[24] حر عاملي، محمد بن حسن، ***وسايل الشيعه***، ج.15.ص 195

[25] بيهقي، ابوبكر احمد بن حسين بن علي، ***سنن كبيره***، دارالفكر، بيروت، بي تا .ج.1.ص.53

onların yaşayışını təmin etməlidir. Bu baxımdan qız və oğlan arasında fərq yoxdur[26]. Əlbəttə, onu da qeyd etmək lazımdır ki, xərc məsələsi təkcə ata-anaya şamil olunumur, baba və nənəyə də aid edilir. Əgər onların əli aşağı olsa nəvələr onlara xərclik verməlidirlər. Burada ata-ana və baba-nənə arasında fərq yoxdur.

İslama görə övlad valideynə öz ehtiyacını dil ilə istəməyə imkan verməlidir. Bunu özü arayıb öyrənib təmin etməli, valideynin şənini və şəxsiyyətini qorumalıdır.

Allah-təala bu barədə belə buyurur: "(Ya Rəsulum!) Səndən (Allah yolunda) nə verəcəkləri haqqında soruşanlara söylə: "(Malınızdan) verəcəyiniz şey ata-anaya, (yoxsul) qohumlara, yetimlərə, miskinlərə və (pulu qurtaran) müsafirə (yolçulara) məxsusdur". Şübhəsiz ki, Allah etdiyiniz xeyirli işi biləndir" (Bəqərə:215). Beləliklə, valideyn üçün "infaq" islamda vacib sayılır.

*b. Yaşlı valideynə xüsusi qayğı.*

Ata-ana qocalıb müəyyən bir həddə yetişəndə onların qayğıya ehtiyacı olur, bu yaşda fiziki cəhətdən özlərinə qulluq etməyə qadir olmurlar. Bu halda övladların qarşısında valideynə bütün yönlərdə qayğı göstərmək vəzifəsi dayanır. Bu qayğı həm fiziki, həm mənəvi, həm də ruhi-psixoloji cəhətləri əhatə edir. Valideynə maddi və fiziki köməklə yanaşı, onların ruhi-psixoloji ehtiyaclarının ödənməsi xüsusi əhəmiyyət daşıyır. Övladlar bu halda ata-ana ilə səmimi münasibət qurmalı və onlarla xoş rəftar etməlidirlər.

Dördüncü yarımfəslin ikinci paraqrafında "**Valideynə münasibə-tin əsas məqamları"** açıqlanır. Valideynlərin övladlar üzərindəki haqları iki dövrə ayrılır: həyat dövrü, sonrakı dövr. Birinci dövrdə bu hüquq aşağıdakı halları əhatə edir:

a. Yaxşılıq və ehsan.

b. Ehtiram və itaət.

Ölümdən sonra övlad üçün namaz və oruc qəzası düşür ki, bu da böyük oğlan uşağına aiddir.

Valideyn-övlad münasibətlərinin tənzimlənməsində hər iki tərəfin qarşılıqlı məsuliyyət və vəzifələrinin müəyyənləşdirilməsi və icrası mühüm əhəmiyyət daşıyır Valideynlərin övlada olan tələblərindən biri yaxşılıq və ehtiramdır. Ata-ana övladlarında bu cür fəzilətlərin tərbiyəsi

[26] نجفي، محمد حسن، ***جواهر الكلام في شرح شرائع الاسلام*** .ج.31.ص. 384

üçün zəmin hazırlamalıdır. İslamda Allahın, peyğəmbərlərin və vəsilərin haqlarından sonra ən böyük haqq valideynlərindir.

*Ehsan və yaxşılıq*

Valideynlərin övlad üzərində haqlarından biri yaxşılıq və ehsandır. Qur'ani-Kərim bir çox ayələrdə, o cümlədən, Bəqərə surəsi, 83-cü ayədə insanları tovhidə dəvət edəndən sonra valideynə ehsan etməyə çağırır.

İsra surəsi, 23-cü ayədə isə Allah-təala buyurur: "Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşgün çağına yetərsə, onlara: "Uf!" belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış!"

Göründüyü kimi hər bir müsəlman üçün Allaha ibadətdən sonra valideynə ehsan etmək borc kimi qoyulur. Əllamə Təbatəbai ehsan məsələsində valideynin üstünlüyünü belə izah edir: "İnsanın kökü və əsli ikisinə (ata-anaya) bağlıdır, onun varlığı bu iki sütun üzərində yaranıb. Ona görə onlar digər qohumlardan daha yaxın hesab edilir"[27].

Eyni zamanda insan valideynə şükr etməlidir, xüsusilə ananın haqqı böyükdür, çünki o, hamiləlik dövrü uşağı bətnində saxlayıb böyüdür, doğulandan sonra ona iki il süd verir.

Şükür üç növdür:

1. Qəlbin şükrü və bununla Allahın neməti yada salınır;

2. Dil ilə şükür və bununla nemət qarşısında şükranlıq ifadə olunur;

3. Başqa üzvlərin şükrü ki, imkan daxilində ne'mətin əvəzini (mükafatını) təmin etməkdir.

Valideynə yaxşılıq islam çərçivəsində məhdudlaşmır və səmavi dinləri əhatə edir.

*Valideynə ehtiram və itaət*

Bu hüquq da qarşılıqlıdır, yəni valideynlər övladlara hörmətlə yanaşdığı kimi, onlar da ata-anaya ehtiram bəsləməlidirlər. Bu fikir İsra surəsi, 23-24-cü ayələrdə təsdiqlənir. Qur'an valideynə ehtiram göstərməyin zəruriliyini önə çəkməklə onun səbəbini də izah edir, ata-ananın övlad üzərində çəkdiyi zəhməti nəzərə alır.

Qur'ani-Kərimin ayələrində vurğulanır ki, ata-anaya yaxşılıq etməklə, onlara itaət etmək lazımdır. Ancaq valideynə itaət Allahın əmrləri ilə təzad təşkil etməməlidir. Məkarim Şirazi yazır: "Dünyəvi işlərdə ata-anaya lütf və mehribanlıq göstərmək, dinə müxalif olan

---

[27] طباطبائي، سيدمحمدحسين، ***الميزان في تفسير القرآن***، قم، 1372.ج.1.ص.219

fikirləri qəbul etməmək bir növ Allahın haqqı ilə valideynlərin hüquqları arasında orta kəsişmə nöqtəsini təşkil edir”[28].

*Valideynin ölümdən sonrakı dövr üçün haqları.*

Gerçəkdə ata-anaya ehtiram və yaxşılıq, onların hüquqlarına riayət etmək ilahi bir təklif kimi anlaşılır. Valideynin hörməti sağlığında deyil, onun ölümündən sonra da saxlanılmalıdır. Bu həm də əxlaqi-mənəvi məzmun daşıyır.

İkinci fəsil **“İslamda uşaq tərbiyəsi”** adlanır və onun **“İslamda uşaq tərbiyəsinin hədəf və mahiyyəti”** adlı birinci yarımfəslində tərbiyənin ümumi anlamı verlir. İbn Mənzur tərbiyə sözünün üç mənasını ayırd edir:

1. Bir şeyi islah etmək, buna görə xaliq və sahib (malik) məfhumunu “rəbb” sözü ilə ifadə edirlər;

2. Birinci məna ilə əlaqəli olmaqla bir şeyi böyüdüb yetişdirmək, bu işdə yardımçı olmaq və başçılıq etmək məfhumu bildirir;

3. Bir şeyin başqa bir şeyə əlavə edilməsi[29]. Rağib İfəhaninin “Müfrədat” əsərində demək olar ki, qeyd edilən bütün mənalar yığcam şəkildə verilmişdir[30]. İbn Əsir əvvəlki müəllifin fikirlərini bir qədər fərqli şəkildə ifadə edərək yazır ki, “tərbiyənin əsası onun tədrici bir proses olmasıdır və bu proses addım-addım gerçəkləşir[31].

Beləliklə tərbiyənin əhatəsi və məzmun çevrəsi genişdir ki, buraya əxlaqi, fiziki, əqli, ictimai-siyasi tərəflər daxildir. Deyilənlərdən tərbiyənin ümumi cəhətlərini belə xülasə etmək olar:

1. Yüksəlişə doğru yönələn təkamül prosesi;
2. Məqsədyönlülük və davamlılıq;
3. Potensial bacarıq və istedadların yetişdirilməsi;
4. İnsan şəxsiyyətinin təşəkkül və təkamülünü əhatə edən hərəkət;
5. Fərqli məktəblər və fikir cərəyanları ilə müqayisələr.

Tərbiyənin əhəmiyyəti o qədər böyükdür ki, alman filosofu İ.Kant onu insan və cəmiyyət həyatında ən böyük və çətin məsələ sayır[32].

---

[28] مكارم شيرازي، ناصر، ***تفسير نمونه***، دارالكتاب الاسلامي، تهران . 1376.ج. 17.ص.43

[29] ابن منظور افريقي مصري، ابوالفضل جمال الدين، ***لسان العرب***، قم، 1405 ج.2.ص. 381-82.

[30] راغب اصفهاني، ***المفردات في غريب القرآن***، دمشق بيروت .ج.1.ص.336

[31] ابن اثير، ***النهايه في غريب الحديث***، قم. 1364.ج.2.ص.181

[32] كانت، آمانوئيل، ***انديشه هايي دربارة آموزش و پرورش*** . دانشگاه تهران. 1372.ص.17

Uşaq tərbiyəsinin əsası ailədə qoyulur və bu proses uzun illər həmin mühitdə davam edir. İslamda ailə mühüm ictimai birlik forması kimi diqqəti cəlb edir, ona görə bir çox davranış prinsipləri və qaydalar ailə həyatı üçün nəzərdə tutulmuşdur. İslama görə "ailə onun üzvləri arasında qarşılıqlı anlaşma və yardım üzərində möhkəmlənə bilər[33].

İnsanın həyatda bir sıra mühüm ehtiyacları vardır və onlar təmin edilməsə hətta dindarlıq da çətinliyə düşər. Bunlar maddi-iqtisadi, bioloji, sosial, əxlaqi-mənəvi və s. ehtiyaclardır. İslam peyğəmbəri (s) buyurur: "Hər kim evlənirsə, o, dininin yarısını hifz etmiş olur, qalan yarısı üçün ilahi təqva yolu seçməlidir"[34]. Başqa bir hədisdə isə belə deyilir: "İslamda ailədən gözəl bünövrə və əsas yoxdur"[35].

Ailə cəmiyyətin bünövrəsi və təməlidir, evlilik və ailə qurmaqdan uzaq olan bir mühitdə istər-istəməz əxlaqi fəsad çoxalır. Övladların tərbiyəsi onların bu günü ilə məhdudlaşmır, onların gələcəyi və gələcək ailə həyatı ilə bağlı bir məsələ kimi qarşıya çıxır. Buna uyğun olaraq ailələri belə qruplaşdırmaq olar:

1. Səthi münasibət qurulan ailələr.

Belə ailələrdə bir növ o qədər də qanun-qayda olmur, buna görə də ictimai adət-ənənələrə və başqa qaydaların icrasına məhəl qoyulmur "Belə bir şəraitdə uşaqlar ictimai həyatda düzgün yol tapa bilmir və fərdiyəçiliyə qapanır"[36].

2. Ciddi müstəbid ailələr.

Bu cür ailələrdə adətən ata öz göstərişlərini uşaqlara diktə edir və onlar da bunu icra etməli olurlar. Bəzi sosioloqlara görə "bu cür mühitdə böyüyənlər həm də müstəbid olurlar"[37].

Sosial və psixoloji baxımdan yanaşsaq bu tip ailələrdə uşaqların tərbiyəsi müsbət nəticələr vermir.

3. Orta yol seçən güclü ailələr.

Bu cür ailələrdə uşaqlara düşüncə azadlığı və sərbəstlik ruhiyyəsi aşılanır, ancaq valideynlər onları nəzarətsiz buraxmır, onlarda məsuliyyət hissi tərbiyə olunur. İslam üçüncü növ ailəyə üstünlük verir.

---

[33] بهشتي، سعيد، ***زمينه اي براي بازانديشي در فلسفه تعليم و تربيت*** .تهران. ص.66

[34] ابن حنبل، ***مسند احمدبن حنبل***، استانبول، 1402 .ص 234

[35] شهيد ثاني، زين الدين بن عالمي، ***الروضه البهيه*** دارالعالم اسلامي، بيروت، بي تا.ج.8.ص. 82.

[36] حسيني، داود، ***روابط سالم در خانواده*** . تهران. 1388. ص.83

[37] Həmin.s.84

Məlumdur ki, islam orta və mötadil yol seçən bir məktəbdir, heç vaxt ifrat və təfriti qəbul etmir. Övlad tərbiyəsi həşçinin böyük sosial-ictimai əhəmiyyətə malikdir. Fərdin cəmiyyətdə göstərdiyi əməl və rəftar birbaşa ev və ailədə verilən tərbiyənin nəticəsi olaraq qarşıya çıxır. Uşaqlar həmin tərbiyədən aldıqları rəftarı cəmiyyətə daşıyır.

Bu fəslin ikinci yarımfəslində **"Dini tərbiyə və onun əhəmiyyəti"** təhlil edilir. Ümumiyyətlə din və tərbiyə məfhumları bir-biri ilə sıx əlaqədardır və burada mənəvi dəyərlər və etiqad məsələsi önə çəkilir. Həmin əqidə "canlı və həssas bir fenomen kimi təsbitləşir və bəşər fitrətinə xas dəyər olaraq formalaşır"[38].

Rum surəsi, 30-cu ayədə buyurulduğu kimi, din fitridir. Dinin cövhəri və əsası fitrət məfhumunda ifadə olunur, "onun açarı isə iç aləmi oyatmaq və hərəkətə gətirməkdir"[39]. Dini tərbiyə sadəcə fərdin etiqadının möhkəmlənməsi ilə kifayətlənmir, bəlkə də həmin etiqadın köməyi ilə əxlaq və davranışın mükəmməl biçimə salınmasını nəzərdə tutur. Burada dini həqiqətlər dünyəvi həyatdan ayrılmır və əksinə, onun düzgün tənzimlənməsinə kömək edir. Dissertasiyada dini tərbiyənin əhəmiyyəti barədə Quran ayələri və hədislər təhlilə cəlb edilir.

Burada tərbiyə ilə əlaqədar fərd və cəmiyyət üçün önəmli olan dəyərlər diqqət mərkəzində yerləşir:

1. Qur'an ayələrinin ardıcıl düzəni və onların nizamlı şəkildə oxunuşu bir növ tə'lim-tərbiyə üçün psixoloji zəmin hazırlayır[40].

2. Qur'an ayələri insanlarda olan pis əxlaqi xüsusiyyətləri yaxşı əxlaqi keyfiyyətlərlə əvəz etmək məqsədi daşıyır.

3. Kitab və hikmətin öyrənilməsi mühüm əxlaqi-mənəvi amildir.

Kitab dedikdə peyğəmbərə nazil olan Qur'an nəzərdə tutulur. Ancaq bu məfhum daha geniş məzmuna malikdir. Amuliyə görə, kitab bütün varlıq aləmini əhatə edir ki, burada əsasən iki aləmə xas kitabdan söhbət gedir: afaq (üfüqlər) və Ənfəs (nəfslər), xarici və batini aləm və yaxud təkvin və tədvin[41].Hikmət dedikdə isə peyğəmbər hökmləri, dini əqidə, əxlaq, əməl və rəftar nəzərdə tutulur[42].

---

[38] حجتي، محمد باقر، ***اسلام و تعليم و تربيت***. ص.12

[39] كريمي، يوسف، ***روانشناسي اجتماعي***، چاپ اول، تهران، بعثت، 1372. ص. 143

[40] مكارم شيرازي، ناصر، ***تفسير نمونه***. ج.1.ص. 511

[41] حر عاملي، محمد بن حسن، ***وسايل الشيعه***. ج.1. ص.98

[42] گنابادي، سلطان محمد، ***تفسير بيان السعاده في مقامات العباده***. بيروت.1408. ج.1.ص.146.

Qur’an ayələri ilahi hikmətdən vəhy ilə peyğəmbərə nazil olanların bir qismini təşkil edir. Burada əsas hədəf fəzilətli cəmiyyət yaratmaq üçün insanlarda olan istedadları və qabiliyyətləri təlim-tərbiyə ilə aşkar etmək, nəfsi təmizlik vasitəsilə onları dünya və axirətdə səadətə qovuşdurmaqdır.

Dini tərbiyədə eyni zamanda valideyn məsuliyyəti önə çəkilir. Qur’ani-Kərim tərbiyəni valideyn üçün vəzifə kimi təqdim edir (Təhrim: 6). Əllamə Təbatəbai belə yazır: “Özünüz öz ailənizə ədəb öyrədin, cəhənnəmin atəşindən qorunun. Bilin ki, o biri dünyada sizi yandıran atəş öz əməl və rəftarınızın məhsuludur od olub canınıza düşər. Bu elə bir atəşdir ki, ondan qaçış yolu yoxdur”[43].

Burada iki tərəf və iki qanad vardır ki, onun biri iman və əməl, digəri isə nəzarətdir. Beləliklə, Allah-təala Qur’an ayələrində uşaqların təlim-tərbiyəsini valideynlərin mühüm vəzifəsi hesab etmişdir.

Hər bir ata-ana öz övladı üçün iki mühüm xüsusiyyət istəyir:

1. Sağlam bədən.
2. Ruhi və psixoloji sağlamlıq (saleh).

Düzgün tərbiyə ilə övlad valideynin gözünün işığına çevrilir[44]. İslamda dini tərbiyə övladın haqqı kimi dəyərləndirilir və ən yaxşı miras yaxşı tərbiyədir. Peyğəmbər (s) belə buyurub: “Ataların övlad üçün ən yaxşı mirası yaxşı ədəbdir”[45].

**2.2.2. İctimai və əxlaqi tərbiyə**

İctimai həyatın bünövrəsi ailədə qoyulur və burada formalaşan davranış və rəftar qaydaları cəmiyyətdə əks-səda verir. Deməli, ictimaiyyətdə baş verən proseslər, burada qarşıya çıxan müsbət və mənfi hadisələr bir növ ailədəki münasibətlərin başqa bir səviyyə və müstəvidə davamı kimi təzahür edir. İslam valideynlər üçün bu yöndə müəyyən tövsiyələr nəzərdə tutur ki, onların köməyi ilə həm özləri, həm də başqa insanlar üçün faydalı şəxsiyyətlər yetişdirmək mümkündür.

1. Öz şəxsiyyətini tanımaq.

Uşağa anlatmaq lazımdır ki, Allah insanı əziz və kəramətli yaratmışdır. Ona görə uşaqları şəxsiyyətə xələl gətirən şeylərdən uzaq olmağa dəvət etmək lazımdır.

---

[43] طباطبائي، سيدمحمدحسين، ***الميزان في تفسير القرآن*** .ج.19.ص.560

[44] نوري طبرسي، حسين، ***مستدرك الوسائل*** . بيروت، چاپ اول، 1408. ج.4.ص.97

[45] هندي، حسام‌الدين، ***كنز العمال***، ج.16.ص. 260

2. Başqalarının şəxsiyyətinə ehtiram.

İnsan özünə dəyər verdiyi kimi başqalarının şəxsiyyətinə ehtiramla yanaşmalıdır. Bu məsələ uşaqların tərbiyəsində diqqət mərkəzində yerləşməlidir. Başqalarına münasibət sağlam və hörmət əsasında qurulmalıdır.

3. Başqalarına haqsızlıq və zülmdən çəkinmək.

Öncə qeyd etmək lazımdır ki, ümumiyyətlə, islam haqsızlıq və zülmü böyük günahlardan hesab edir. Çünki bunlar cəmiyyətin təhlükəsizliyini və rahatlığını pozur, sosial narazılıq yaradır, "cəmiyyətdə hərc-mərcliyə gətirib çıxarır"[46].

Uşaqlar hələ ailə mühitində başqalarının şəxsiyyət və hüquqlarına, mal və sərvətinə ehtiramla yanaşmağı öyrənməlidirlər. Onlarda ədalət hissi ailədə tərbiyə olunmalıdır. Həmin hissin

4. Sirr saxlamaq vərdişi.

Cəmiyyətdə anlaşma və barış ruhiyyəsinin təmin edilməsi baxımından sirr saxlamağın böyük tərbiyəvi əhəmiyyəti vardır. Belə olmadıqda ictimai əlaqələr bir-birinə dəyir, etimadsızlıq yaranır, insanlar bir-birinə qarşı qoyulur.

5. Alimlərlə oturub durmaq.

Ədəb və elm adamları ilə oturub durmaq uşaqların əxlaq və tərbiyəsinə böyük təsir göstərir. Bu barədə "Kimyayi-səadət", "Əxlaqi-Nasiri", "Qabusnamə" və s. geniş bəhs edilmişdir.

6. Çətinliklərlə qarşılaşma.

Bəşər həyatı bütün tarixi dönəmlərdə müxtəlif çətinliklərlə qarşılaşır və bu təbii haldır. Təcrübə göstərir ki, çətinliklərlə mübarizə insan həyatının bir qismini təşkil edir. Uşaqları naz-ne'mətlə böyütmək, onlarda süstlük və tənbəllik yaradır. Uşaqlar səbəst şəkildə cəmiyyətə və ictimai həyata daxil olanda onlarda mətanət və dözümlülük olmalıdır. Bütövlükdə isə uşaqların ictimai həyatda uğur qazanması üçün onların tərbiyəsində aşağıdakı amillər əhəmiyyət daşıyır:

1. Dua və Allaha ümid.
2. Səbr və dözüm.
3. Dünyaya ürək bağlamamaq.

Təbiidir ki, heç kəs dünya həyatını və onun ne'mətlərindən faydalanmağı inkar etmir və bu insan firətindən doğan təbii ehtiyacdır. Qur'an dünya ne'mətlərindən bəhrələnməyi insanın təbii haqqı kimi

---

[46] طبسي، محمدجواد، ***حقوق فرزندان در مكتب اهل بيت (ع)***، تهران. 1376.ص.223

qəbul edir, ancaq insan maddi həyata hərisliklə qapandıqda bir növ həyat fəlsəfəsindən qafil olur, gözü və könlü maddiyatın pərdəsi ilə örtülür.

Ona görə də dünyaya hədsiz bağlılıq insanı öz mənəvi borclarını yerinə yetirməyə və onun təkamülünə maneçilik törədir. Bu səbəbdən Qur'ani-Kərim Hədid surəsi, 22 və 23-cü ayələrində dünyaya aludə olmağın fəsadı barədə belə xəbərdarlıq edir.

*Əxlaqi tərbiyə.*

Əxlaqi təlim-tərbiyə yeniyetmələr və cavanlar üçün böyük əhəmiyyət kəsb edir, çünki şəxsiyyətin formalaşması bu dövrdə gerçəkləşir və yeni nəslin ictimai həyata hazırlanması bu dövrə təsadüf edir. Hətta ibadət və dini tərbiyə ilə müqayisədə əxlaqi tərbiyə daha geniş məzmun daşıyır. Əxlaqi tərbiyə dini maarifin daha səmərəli şəkildə mənimsənilməsinə zəmin yaradır. Din özü də bəşər əxlaqını zənginləşdirən mühüm dəyərləri özündə ehtiva edir. Dini baxımdan yanaşdıqda "təlim-tərbiyə dünya və axirət səadətini təmin etmək üçün əhəmiyyət kəsb edir"[47].

Peyğəmbərin (ə) məşhur bir hədisi var: "Mən bəşər əxlaqını kəramətləndirib təkmilləşdirmək üçün peyğəmbərliyə gəlmişəm" (110,3). İslam əxlaqı təkcə şəxsiyyətə ehtiram bəsləməklə məhdudlaşmır, iqtisadi münasibətlərdə də özünü göstərir. İnsanların mülkiyyət hüququ, onların əmlakının toxunulmazlığı və başqalarının mal-dövlətinin qorunması cəmiyyətdə əmin-amanlıq yaradan mühüm amildir.

Fəslin üçüncü paraqrafı **"Uşaq tərbiyəsinin mühüm prinsip və metodları"** adlanır.

Təlim-tərbiyədə prinsip dedikdə tərbiyəçi və tərbiyə olunan tərəflər arasındakı münasibətləri tənzimləyən qaydalar toplusu nəzərdə tutulur.

1. Təkallahlığa əsaslanmaq prinsipi.

Bu cür tərbiyə alan uşaq Allahı həmişə öz əməllərinə nəzrət edən kimi görür. Allah bizim zahir və batinimizdən agahdır.

2. Fərdi xüsusiyyətləri nəzərə almaq.

Tərbiyə prosesində fərdi xüsusiyyətlərin nəzərə alınması olduqca zəruridir. Bunlar fiziki hazırlıq, zehin, huş, psixoloji özəlliklər və s. məsələlərdə özünü göstərir. Psixoloqlara görə "hər bir fərd müstəqil bir şəxsiyyətdir, onun özünəməxsus fərdi xüsusiyyətləri vardır" (46,230). Qur'ani-Kərin insanın fərdi cəhətini "şakalə" məfhumu ilə ifadə edir: "De: "Hərə öz qabiliyyətinə (xislətinə) görə iş görər. Rəbbin kimin daha

---

[47] حسيني زاده و حاجي ده آبادي، ***بررسي مسائل تربيتي جوانان در روايات***، قم . 1365.ص.105

doğru yolda olduğunu daha yaxşı bilir!” (İsra:84). Peyğəmbərdən (s) gətirilən bir hədisdə belə deyilir: “Biz peyğəmbərlər insanlarla onların ağıl və dərrakə gücünə uyğun danışırıq” (92,469).

İmam Qəzali “Ehya” əsərində bu məsələnin tərbiyədə əhəmiyyətini qeyd edir[48]. Ona görə tərbiyə proqramı standart klişelər üzrə deyil, fərdi xüsusiyyət və qabiliyyətlər nəzərə alınmaqla tənzimlənməlidir.

3. Uşaq şəxsiyyətinə ehtiram.

Tərbiyənin mühüm prinsiplərindən biri uşaq şəxsiyyətinə olan ehtiramdır və bu, insana xas təbii bir ehtiyacdır. İslamda kəramət, şərafət və heysiyyət insana xas dəyərlərdir. Bunlar həm də insanın təbii haqları kimi anlaşılır. Qur’ani-Kərim insan şərafətinə böyük dəyər verir (İsra surəsi: 70). Burada bir neçə məqam mühüm diqqəti cəlb edir:

1. Övlad tərbiyəsinin əhəmiyyəti və valideynin vəzifəsi;

2. Uşaq şəxsiyyətinə ehtiram bəsləməklə onda mövcud olan istedadın çiçəklənməsinə zəmin hazırlamaq;

3. Uşaqda gələcək ictimai həyat üçün özünə inam psixologiyasının hazırlanması;

4. Uşaqda müstəqillik və öz haqlarını qorumaq ruhiyyəsinin aşılanması.

4. Uşaqlar arasında ədalətlə rəftar.

- Övladlara hədiyyə verərkən bərabərliyi saxlamaq;
- Qız övladlara daha çox qayğı və nəvaziş göstərmək;
- Uşaqlar arasında ədalətlə davranmaq.

5. İnsanın meyl və istəklərinin nəzərə alınması.

*Övlad tərbiyəsinin metodları.*Bütövlükdə təlim-tərbiyə metodlarını iki dəstəyə ayırmaq olar:

1. Tərbiyəçinin tərbiyə metodları.
2. Özünü tərbiyə metodları.
3. Örnək və nümunə metodu.

Tərbiyənin ən yaxşı və qısa yollarından biri örnək göstərməkdir. Peyğəmbər və digər dini və elmi şəxsiyyətlərdən gətirilən əməli nümunələr uşaqların şüuruna güclü təsir göstərir. “Örnək və nümunə insan psixologiyasının analogiyaya olan marağından irəli gəlir” (83,149). İslam mədəniyyətində tərbiyə əsasən örnək üzrə qurulur və Qur’ani-Kərimdə örnək məsələsi iki şəkildə təqdim edilmişdir:

---

[48] غزالي، ابوحامد، ***احياء علوم الدين***، ترجمه مؤيد الدين خوارزمي به كوشش حسين خديوجم، تهران، انتشارات علمي و فرهنگي، 1364.ج.2.ص.109

1. Bir sıra ayələrdə müxtəlif şəxsiyyətlər örnək və nümunə kimi təqdim edilir, onların ardınca getmək tövsiyə olunur (Əhzab: 21; Mümtəhinə: 4,6; Bəqərə: 143)

2. Başqa qisim ayələrdə insan əxlaqına xas gözəl xüsusiyyətlər nümunə olaraq gətirilir (Əhqaf:35; Təhrim:10). Hədis və rəvayətlərdə də bu cür örnək və nümunələr çoxdur və onlar Qur'an ayələrində ifadə edilən mənaları təsdiqləyir. İslam peyğəmbəri (s) bu baxımdan öz əməl və rəftarı ilə müsəlmanlar üçün örnək sayılır[49] (139.c.2,423).

4. Davamlılıq və mötədillik

Uşaqların təlim və tərbiyəsində səmərəli üsullardan biri bu prosesin ardıcıl, davamlı olamsı, eyni zamanda mötədil yanaşmadır.

5. Tənbeh əvəzinə həvəsləndirmə.

Uşaqları təlim-tərbiyəyə cəlb etmək üçün işlənən yaxşı üsullardan biri həvəsləndirmədir. Əlbəttə, həvəsləndirmə maddi xarakter daşımır və yalnız danışıq və rəftarla yaranır.

6. Gözəl möizə.

Möizə ibrətamiz və nəsihət dolu nitq olmaqla maarifləndirmə məqsədi daşıyır (Nisa surəsi:58; Yunus:51; Loğman: 13).

İkinci fəslin dördüncü yarımfəslində **"Tərbiyənin əsas amilləri və mərhələləri"** açıqlanır. Mühit bir növ xarici amillərlə bağlıdır və onun uşağın həyatına təsiri hələ ana bətnindən başlayır[50] (77,167). Mühit dedikdə uşağın yaşadığı ailə şəraiti və sonra isə bağça və məktəb nəzərdə tutulur. Uşaqların tərbiyəsi və şəxsiyyətinin formalaşmasında insani amillər mühüm yer tutur. Buraya əsasən aşağıdakılar daxildir: ailə, məktəb, dostlar və tanışlar, tərbiyəçilər və din alimləri.

**A. Ailə mühiti.**

Ailə uşağın böyüməsi və pərvəriş tapması üçün ilk ocaqdır. Ailə elə bir mühitdir uşağın şəxsiyyətinin bünövrəsi burada qoyulur və formalaşır. Övlad öz düşüncə, əxlaq, rəftar və başqa xüsusiyyətləri ilə bir növ ailəni əks etdirən aynaya bənzəyir.

İslam şəriətinə görə ailə mühitində övladların düzgün tərbiyəsi valideynlərin öhdəsinə düşür. Ailə mühitinə aid amillər sırasında ananın yerini xüsusi qeyd etmək olar.

**B. Məktəb.**

---

[49] محقق حلي، ابوالقاسم نجم الدين، ***شرايع الاسلام***، انتشارات استقلال، 1409 .ج.2.س.243

[50] فيعي، بهروز، *آراء دانشمندان مسلمان در تعليم و تربيت و مباني آن* . تهران. 1381.ص.167

Uşaqların və yeniyetmələrin təlim-tərbiyəsində mühüm rol oynayan amillərdən biri də məktəb mühitidir. Məktəb bir növ uşaqların ikinci evi, tə'lim-tərbiyənin rəsmi mərkəzi sayılır. Məktəb uşaqların tərbiyə və yetişməsində böyük rol oynayır. Burada iman, etiqad və dini dəyərlərlə zəngin bir mənəvi mühit və rəftar olmalıdır.

Müəllim həm də tərbiyəçi və əxlaq təlimatçısıdır və məktəb mühitində savad ilə əxlaqın vəhdəti olduqca mühümdür.

**C. Dost və yoldaşlar.**

Təbiidir ki, dost və ya yoldaş hər bir kəsin düşüncə həyatında, onun rəftar və davranışında böyük təsir gücünə malikdir. Hətta dost bir şəxsin taleyində köklü dəyişiklik edə bilər.

**D. Qohumlar.**

Qohumluq əlaqələri ictimai münasibətlərin bir növü kimi cəmiyyətdə mühüm yer tutur. Qohumluq daha geniş ictimai əlaqələr üzərində qurulur və ailədə isə əsas əlaqələr valideynlər və övladlar arasında gerçəkləşir.

**E. Kütləvi informasiya vasitələri.**

Psixologiya əsrində meydana çıxan və insanların gündəlik həyatına qaçılmaz təsir göstərən vasitələr uşaqların tərbiyəsində böyük rol oynayır. Buraya radio və televizor, mətbuat, internet, peyk-antena və digər müasir informasiya vasitələri daxildir. Mütəxəssislər bu mənada kütləvi informasiya vasitələrində edilən təbliğatı iki qismə bölürlər: mədəniyyətin və əxlaqın yüksəlişinə xidmət edən, əksinə, onların süqut və çöküşünə hesablanan təbliğat.

*İslamda uşaq tərbiyəsinin üç mərhələsi.*

Psixoloqlar uşağın iç aləmində olan dəyişiklikləri, onun fiziki, əxlaqi və ruhi tərbiyəsi üçün mühüm amillərdən biri hesab edirlər. Həmin dəyişikliklər uşaq böyüdükcə yaş həddinə görə mərhələlər üzrə baş verir.

***Birinci mərhələ → ilk yeddi il:***

Bu dövr uşaq azaddır, öhdəsinə heç bir iş düşmür, o sadəcə oynayır və əylənir. Bu dövrdə o təmasda olduğu şeylərlə və ətrafla tanış olur, ata-ananın qayğı və himayəsi altında yaşayır.

***İkinci mərhələ → ikinci yeddi il:***

Bu dövr bəndəlik mərhələsi adalnır, o, ayrı-ayrı məfhumları dərk edə bilir və artıq təlim-tərbiyə mərhələsinə daxil olur. Bu, övlad tərbiyəsində ən mühüm və həlledici mərhələdir. Hədislərdən göründüyü kimi, bu dövrdə uşaq savad və biliklə yanaşı, ədəb və əxlaq mənimsəyir.

***Üçüncü mərhələ → son yeddi il:***

Bu mərhələ hədis və rəvayətlərdə “müşavir və iş” mərhələsi adlanır, yə’ni ata-ana yeniyetmə övladını işə öyrədir, öz nəzarəti altında bir sıra məsuliyyətləri ona həvalə edir. Sonda bir sıra nəticələr ümumiləşdirilir:

1. İslam mədəniyyətində sosial məsələlər və o cümlədən, valideyn-övlad münasibətləri diqqət mərkəzində yerləşir. Bu münasibətlər həm qarşılıqlı hüquqi vəzifələr və məsuliyyətlər səviyyəsində, həm də əxlaqi və tərbiyəvi müstəvidə nəzərdən keçirilir. Valideyn-övlad münasibətləri ailə çərçivəsində qurulur və burada onlar arasında hüquqi və əxlaqi-mənəvi vəzifələrin yerinə yetirlməsi gələcəkdə sivil cəmiyyətin təşkilində mühüm rol oynaya bilər.

2. İslamda valideyn-övlad münasibətlərinin xüsusi yeri vardır və bunlar qarşılıqlı ehtiram və məsuliyyət şəraitində qurulur. Burada valideynlərin övladlar üzərində haqları və əksinə övladların valideynlər üzərində haqları dəqiqliklə ayırd edilir. Uşaqların hüququ mədəni, maddi-sosial və əxlaqi-mənnəvi cəhətdən diqqət mərkəzində saxlanılır

4. İslama görə, uşaqların üzərində qarşılıqlı olaraq valideynlər qarşısında hüquqi və mənəvi borcu vardır ki, bu da valideynin saxlanması, xərclərinin ödənməsi, yaşlı valideynə ehtiram və yaxşlıqdan ibarətdir. Valideynə edilən ehsan və yaxşılığın müsbət mənəvi-psixoloji əhəmiyyəti vardır.

5. Dissertasiyada əsas diqqət İslamda uşaq tərbiyəsinin hədəf və mahiyyətinin aşıqlanmasına yetirilmişdir. Burada tərbiyənin əsas növ və istiqamətləri müəyyən edilir: a. Dini-mənəvi tərbiyə, b. İctimai və əxlaqi tərbiyə, c. Fiziki tərbiyə

6. Uşaqlar ailə və onun xaricində müxtəlif insanlarla təmasda olur və tədqiqatda onun tərbiyəsinə təsir göstərən başlıca amillər və onların əsas məqamları açıqlanır.

7. İslamda uşaq və yeniyetmələrin tərbiyəsi yaş və məlumat səviyyəsinə görə üç mərhələyə ayrılır:

a. Uşaqlığın sərbəst mərhələsi – ilk yeddi yaşa qədər;

b. Ailə və məktəb mühitində təlim-tərbiyəsi – sonrakı yeddi il;

c. İctimai həyata və işə hazırlıq mərhələsi – daha sonrakı yeddi il.

**Tədqiqatın müddəaları aşağıdakı nəşrlərdə əks olunmuşdur:**

1. İslam hüququnda uşaqlıq dövrü və yeniyetməlik anlayışı. Din və Dövlət. İctimai fikir toplusu. Bakı: May-İyun, 2012, № 3(29). s.101- 106

2. İslamda uşaq hüququna riayət olunması. Elmi Əsərlər .Bakı Slavyan Universiteti (İctimai-siyasi elmlər seriyası). Bakı: 2013, № 1.s.143-147
3. İslam sosiologiyasında uşaq tərbiyəsinin məqsəd və metodu / Azərbaycan şərqşünaslıq elminin inkişaf yolları: AMEA ak. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu. Ak. V.Məmmədəliyevin 70 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Konfransın Materialları. Bakı, 27-28 iyun 2013.s.819-822
4. İslamda uşaqların təlim-tərbiyəsi haqqında. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. XIII Respublika elmi konfransının Materialları. Bakı, 24 may 2013. S.361-363
5. Teaching and upbringing of children. International Journal of Academic Research. Part B; 2013; 5 (1). Dol: 10.7813/2075-4124.2013/5-1/.9.p.50-53
6. Rights of Children in Child-Parent Relationship from Islamic Perspective.Technical Journal of Engineering and Applied Sciences. Available online at www.tjeas.com Journal-2014-4-4/297-300.p.297-300
7. Rights of Parents in Parent-Child Relationship from Islamic Perspective. Technical Journal of Engineering and Applied Sciences. Available online at www.tjeas.com Journal-2014-4-4/p. 293-296
8. Upbringing (Child-Rearing) from Islamic Perspective with Emphasis on the First 7-Years of Child's Life. International Journal of Adminstraion and Governance, Journal home page: http://www.iwnest.com/AACE/ 1(2) March 2015, P. 1-4

## ВЗАИМООТНОШЕНИЯ РОДИТЕЛЯ И РЕБЕНКА И ВОСПИТАНИЕ ДЕТЕЙ В ИСЛАМЕ (РЕЗЮМЕ)

В работе исследуется вопрос о взаимоотношении родителя и ребенка, а также проблемы воспитания детей в исламской культуре с учетом современного состояния социальных, духовных и этико-нравственных потребностей общества. Основными источниками исследования являются коранические стихи и хадисы, а также современные теоретические работы.

Взаимоотношения родителя и ребенка в исламской общине рассматриваются в широком социально-общественном, духовном, психологическом, правовым и  и интеллектуальном аспектах.

**В первой главе** рассматриваются общие социально-материальные, правовые и духовно-нравственные положения Ислама, на основе которых регулируются взаимоотношения родителей и детей.

Здесь в отдельных параграфах исследуются следующие вопросы: семья и социально-общественные права детей, права ребенка на физическое и психологическое здоровье, право на  права родителей перед детьми, основные принципы и методы воспитания, важные факторы и этапы воспитательной работы.

**Вторая глава** работы содержит изучение проблем воспитание детей в Исламе. В ее отдельных параграфах анализируются следующие аспекты: цель и сущность воспитание детей в Исламе, религиозное воспитание и его значение, общественное и моральное воспитание, принципы и этапы воспитания, взаимоотношение воспитания и образования.

Родители несут общественно-социальную и духовную ответственность за обеспечение необходимых материальных, социальных и духовных потребностей детей, куда входят питание и другие материальные нужды, здоровье, образование и воспитание. Одновременно дети несут одинаковую ответственность за уважение родителей, они обязаны оказать им социально-материальную помощь, проявить заботу в годы старости.

**RELATIONSHIP BETWEEN THE PARENT AND THE CAHILD AND EDUCATION OF SHILDREN IN ISLAM**
**(SUMMARY)**

The paper contains the relationship between a parent and a child, as well as the problems of education of children in Islamic culture, taking into account the current state of social, spiritual, ethical and moral needs of society.

The main sources of research are Quranic versrs and hadiths, as well as modern theories. The mutual relations of the parent and child in the Islamic community are viewed generally in a broad social, spiritual, psychological, legal and intellectual aspects.

**The first chapter** examines the general socio-material, legal, spiritual and moral positions of Islam, where is regulated the relationship between a parent and a child.

In its separate paragraphs are analyzed the following aspects: family, social and public rights of children, the rights of the child to physical and psychological health, the rights of parents to children, the basic principles and methods of education, important factors and stages educational process.

**The second chapter** of the work contains a study of the problems of the upbringing of children in Islam. In its separate paragraphs are analyzed the following aspects: the purpose and essence of the upbringing of children in Islam, religious upbringing and its meaning, social and moral education, principles and stages of upbringing, the relationship between the upbringing and education.

Parents are socially and spiritually responsible for ensuring the necessary material needs of children, which includes nutrition and other material needs, health, education and upbringing.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ РУКОПИСЕЙ им. МУХАММЕДА ФИЗУЛИ**

*На правах рукописи*

**ЯКУБ ИСМАИЛ оглы МУТАЛЛИБИ-ГОЛЕЗАНИ**

# ВЗАИМООТНОШЕНИЯ РОДИТЕЛЯ И РЕБЕНКА И ВОСПИТАНИЕ ДЕТЕЙ В ИСЛАМЕ

Специальность: 7213.01 – Религиоведение

**АВТОРЕФЕРАТ**

диссертации на соискание ученой степени доктора
философии по философии

**БАКУ – 2015**